# Hesabat

Azərbaycan Respublikası Prezidenti yanında Elmin İnkişafı Fondu "Qədim dillər və sivilizasiyalar" lahiyəsinin həyata keçirilməsi ilə bağlı İtaliyanın aparici Universitetlərinin müvafiq fakültə və departamentləri ilə əməkdaşlıq münasibətlərinin qurulması və müvafiq təhsil proqramlarının hazırlanması imkanlarının öyrənilməsi məqsədilə mənə bu ölkəyə səfərə getmək üçün üç həftəlik Mobillik Qrantı ayırmışdır. Bununla bağlı Elmin İnkişafı Fondu mənimlə Müqavilə No EİF-Mob-3-2013—6(12)-14/10/5-M-03 bağlamışdır. Bu Mobillik Qrantı çərçivəsində 2014-cü ilin 15 mart-5 aprel tarixlərində İtaliyada səfərdə olmuşam.

Səfərim çərçivəsində İtaliyanın Bari şəhərində yerləşən Bari Universitetinin və Roma şəhərində yerləşən La Sapienza və Salesian Vatikan (Salesian Pontifical University-şəhərdə fəaliyyyət göstərən bir neçə Vatikan Universitetlərindən biridir) Universitetlərinin təmsilçiləri ilə bir sıra görüş və müzakirələr keçirdim. Bari Universitetinin professoru, Qədim dövr tədqiqatları sahəsində (xüsusilə, Yunan) İtaliyanın aparıcı mütəxəssislərindən biri olan Luçiano Kanfora, Sapienza Universitetinin Əməkdaşlıq və Beynəlxalq əlaqələr üzrə Prorektoru, professor Antonella Biagini, həmin Universitetin Yazı və Fəlsəfə fakültəsinin dekanı, professor Roberto Nikolai, Fakültənin nəzdində fəaliyyət göstərən Yunan və Latın Filologiyası Departamentinin professorları Alessandro Çiessari və Françeska Romano Berno, Salesian Vatikan Universitetinin Xristian və Klassik Yazı fakültəsinin professoru Don Roberto Spataro və Latın dilində şerlər yazan şair Mauro Pizini ilə görüşlərim oldu. İtaliyanın ən böyük Universiteti olan La Sapienzada apardığım müzakirələr nəticəsində Latın və Yunan dilləri və sivilizasiyaları üzrə təhsil alacaq Azərbaycanlı mütəxəssislər üçün fərdi proqramlar hazırlanmasına başlanmışdır. Bu proqramların hər iki komponenti-sırf dil tədrisi və tarix, mədəniyyət, ədəbiyyat kimi sahələrin tədrisini əhatə edəcəyi nəzərdə tutulur. Professorlar Alessandro Çiessaro və Françeska Romano Berno ilə görüşlərim zamanı Latın dili və mədəniyyyəti sahəsində fərdi proqramın bütün mümkün komponentləri ətraflı təhlil olunmuşdur. Bu görüş və müzakirələrin nəticəsi olaraq Azərbaycandan gələcək mütəxəssis üçün 10 fənndən ibarət 1 illik fərdi proqram

tərtib olunmuşdur.  Fənnlərin tədrisi ingilis dilində nəzərdə tutulur. Bu barədə La Sapienza Universitetinin rəhbərliyi öz razılıq məktubunu təqdim etmişdir.

İtaliyaya səfərimin nəticələri AMEA-nın Dilçilik İnstitutunda bir neçə dəfə geniş müzakirə olunmuşdur. Bu müzakirələr zamanı latın və digər qədim dillər üzrə mütəxəssis hazırlığının əhəmiyyətini nəzərə alaraq layihənin həyata keçirilməsi yolları nəzərdən keçirilmişdir. Bu mənada xüsusi diqqət gənc mütəxəssislərin layihəyə cəlb olunmasına yönəlmişdir. Qeyd etmək lazımdır ki, artıq AMEA-nın Dilçilik İnstitutunda magistratura pilləsində "Latın dili" ixtisası üzrə mütəxəssis hazırlığı həyata keçirilir. Gələcəkdə bu gənc mütəxəssislər İtaliya universitetlərində öz biliklərini təkmilləşdirə bilərlər.

Azad Məmmədov